Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) 2023-cü ilin YANVAR AYINDA AÇIQLADIĞI ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

# ÜMUMİ MƏLUMAT

- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2022-ci ilin dekabr ayında orta hesabla **132.4-ə** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi noyabr ayı ilə müqayisədə **1.9% azalıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **1.0% azalıb**. Ümumilikdə 2022-ci il üzrə FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) **143.7-ə** bərabər olmuşdur.
- Son qiymət azalmasının əsas səbəbləri:

✓Taxıl,

✓Ət,

✓Bitki yağlarında olan qiymət azalmalarıdır.




*Qeyd*: 2022-ci ilin yanvar - dekabr ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)

- Taxıl məhsullarının Qiymət İndeksi dekabr ayında orta hesabla **147.3 bənd** təşkil edib:
  - ✓ 2022-ci il noyabr ayına nisbətən **2.9 bənd (1.9%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **6.8 bənd (4.8%) artıb.**
- Taxıl məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Cənub yarımkürəsində buğda yığım mövsümü olması ilə əlaqədar olaraq təklifin artması;
  - ✓ Braziliyada olan güclü rəqabət fonunda qarğıdalı qiymətinin azalması;
  - ✓ Arpa və sorqo qiymətlərinin azalması.



# BİTKİ YAĞLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Bitki yağı Qiymətləri İndeksi dekabr ayında orta hesabla **144.4 bənd** təşkil edib:
  - ✓ noyabr ayına nisbətən **10.3 bənd (6.7 %) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **34.1 bənd (19.1%) azalıb.**
- Bitki yağları qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Kolza və günəbaxan yağına olan tələbatın azalması nəticəsində qiymətinin azalması;
  - ✓ Palma və soya yağı qiymətlərinin azalması.



# SÜD MƏHSULLARI



- Süd məhsullarının Qiymətləri İndeksi dekabr ayında orta hesabla **139.1 bənd** təşkil edib:
  - ✓ noyabr ayı ilə müqayisədə **1.5 bənd (1.1%) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **10.1 bənd (7.9%) artıb.**
- Süd məhsullarının qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Artan qlobal tələb fonunda pendir qiymətlərinin artması.
- Süd tozu və kərə yağının qiymətlərinin azalması süd məhsulları qiymət indeksinin kəskin artmasının qarşısını almışdır.



# ƏT MƏHSULLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Ət Qiyməti İndeksi dekabr ayında orta hesabla **113.8 bənd** təşkil edib:
  - ✓ noyabr ayına nisbətən **1.4 bənd (1.2%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **2.8 bənd (2.5%) artıb.**
- Ət məhsulları üzrə qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Mal ətinə olan tələbatın azalması fonunda qiymətin azalaması;
  - ✓ Quş əti qiymətinin azalması .



# ŞƏKƏR

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Şəkər Qiymət İndeksi dekabr ayında orta hesabla **117.2 bənd** təşkil edib:
  - noyabr ayına nisbətən **2.8 bənd (2.4 faiz) artıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **0.8 bənd (0.7%) artıb.**

- Şəkər məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - İstehsalçı ölkələrdə məhsul yığımının gecikməsi,
  - Hindistanda məhsuldarlığın aşağı olması;

